

# *Mahmudov Yagub Mikayil Oğlu*

***Azərbaycan Respublikasının "Şöhrət", "Şərəf" və "Əmək" ordenləri ilə təltif olunmuş AMEA Tarix İnstitutunun direktoru, akademik, əməkdar elm xadimi, Azərbaycan Respublikası Milli Məclisinin (Parlamentinin) deputatı.***

***Tərcümeyi-halı***

*Akademik Yaqub Mahmudov 1939-cu il fevralın 10-da Şəki rayonunun Baş Göynük kəndində anadan olub.1962-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət*

*Universiteti) Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib.1966-cı ildə "Ağqoyunlu dövlətinin Venesiya Respublikası ilə qarşılıqlı əlaqələri (XV əsrin 60-70-ci illəri)" mövzusunda namizədlik dissertasiyası, 1989-cu ildə isə M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Tarix fakültəsinin Elmi Şurasında "Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı – XVII əsrin əvvəlləri)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.Yaqub Mahmudov 1966-1975-ci illərdə Azərbaycan Ensiklopediyasında elmi redaktor, böyük elmi redaktor, redaksiya müdiri, elmi işlər üzrə baş redaktor müavini, 1968-1981-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) baş müəllim, dosent və 1981-2004-cü illərdə isə BDU-nun Tarix fakültəsində dosent, kafedra müdiri, dekan müavini və dekan işləyib.Yaqub Mahmudov 1986-1990 və 1994-2004-cü illərdə Tarix fakültəsinin dekanı olub. Dekan olarkən onun sədri olduğu fakültə Elmi Şurası S.M.Kirov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Dövlət Universitetinin tarixi adı olan Bakı Dövlət Universiteti adının bərpa olunması haqqında qərar qəbul edib. Həmin vaxtdan universitet öz tarixi adı altında fəaliyyət göstərir. Elə həmin dövrdə Yaqub Mahmudov milli azadlıq hərəkatının mərkəzlərindən olan Tarix fakültəsinin bir qrup tələbəsinin universitetdən qovulmasının qarşısını alaraq, 1990-cı ildə dekan vəzifəsindən istefa verib. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra 1994-cü ildə dekan vəzifəsinə bərpa olunub.Yaqub Mahmudov 1991-ci ildən BDU-nun Tarix fakültəsinin qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiridir. Kafedranın formalaşması onun adı ilə bağlıdır.Yaqub Mahmudov 1991-1992-ci illərdə Azərbaycan Respublikasının ilk Təhsil Qanununu hazırlayan ekspert-işçi qrupuna rəhbərlik edib. Onun təqdimatı ilə Milli Məclisdə qəbul olunan qanun əsasında ölkədə müasir təhsil sisteminə keçilib. Müstəqillik dövrünün ilk "Azərbaycan tarixi" və "Orta əsrlər tarixi" dərslikləri onun qələminin məhsuludur.*

*Yaqub Mahmudov 1992-1993-cü illərdə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası sədrinin müavini və "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru vəzifələrində çalışıb.Yaqub Mahmudov 2004-cü ildən AMEA-nın Tarix İnstitutunun direktorudur. 1000-dən çox elmi əsərin müəllifidir. Diplomatiya tarixi, itirilmiş torpaqlar, soyqırımları tarixi elmi istiqamətləri sahəsində yaratdığı elmi məktəblərə və "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsinə rəhbərlik edir. Əsərləri bir çox xarici ölkələrdə (Moskva, London, Vaşinqton, Nyu-York, Ankara, İstanbul, Roma, Qahirə, Seul, Mexiko, İslamabad, Los Anceles və b.) nəşr olunub.Yaqub Mahmudov Azərbaycanda yüksək ixtisaslı tarixçi kadrların yetişdirilməsində mühüm rol oynayır. Onun bilavasitə elmi rəhbərliyi ilə 65 nəfər fəlsəfə və elmlər doktorlarından ibarət tarixçilər məktəbi formalaşıb.Yaqub Mahmudov tarix elmimizi dünya miqyasında layiqincə təmsil edir. O, XXI əsrin məşhur elm adamlarının siyahısına daxil edilib.Yaqub Mahmudov Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2000-*

*ci ildən isə Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, prezident seçkilərində Ulu öndər Heydər Əliyevin, sonra isə İlham Əliyevin vəkili olmuş və bir sıra rəsmi dövlət səfərlərində onları müşayiət etmişdir.Ulu öndər Heydər Əliyev Yaqub Mahmudovun elmi fəaliyyətini yüksək qiymətləndirərək, onu Azərbaycanın "böyük alimi", "böyük tarixçisi" adlandırıb.Ailəlidir. Bir oğlu (Turxan), iki qızı (Aynur və Gülnur) və beş nəvəsi (Nailə, Xaqan, Sara Xatun, Alp Arslan və Yaqub) var.*

***Elmi dərəcə və adları:***

*Tarix üzrə fəlsəfə doktoru (1966), tarix üzrə elmlər doktoru (1989), AMEA-nın müxbir üzvü (2007), AMEA-nın həqiqi üzvü (2017), Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü (2019), Azərbaycan Respublikasının Əməkdar elm xadimi (1992) və Dövlət Mükafatı laureatı (2012), Rusiya Federasiyası Dağıstan Respublikasının Əməkdar elm xadimi, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvü, "The Name in Science" ("Elmdə ad") fəxri titulu, "Ən yaxşı baş menecer" fəxri adı və Oksford Akademik Birliyinin fəxri professoru (2019), Tarixdaş Millətlər və Topluluqlar Cəmiyəti Ali Məsləhət Şurasının üzvü (2019), Türk Tarix Qurumu Şərəf üzvüdür.*

***Təltif olunduğu orden və medallar:***

*"Şöhrət" (1999), "Şərəf" (2009), "Ataman Anton Qolovatıy" (2013), 1-ci dərəcəli "Əmək" (2019) ordenləri, "Azərbaycan polisinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı (2018), Milli Məclisin "Parlament" medalı (2018), "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı (2019), "General Səməd Bəy Mehmandarov" yubiley medalı (2019), "Simurq" beynəlxalq medalı (2019), "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalı (2019), Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Beynəlxalq Qızıl Ulduz" medalı (2019), "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı (2019) və "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı (2019).*

***Layiq görüldüyü mükafatlar:***

*"Yusif Məmmədəliyev", "Rəsul Rza", "Qızıl qılınc", "Qızıl qələm", "Samir Əsgərxanov", "Humay" və "Gənclərin dostu" mükafatları laureatı. "Kraliça Viktoriya" Beynəlxalq mükafatı, AMEA-nın Abbasqulu ağa Bakıxanov adına mükafatı (2016), Tarix İnstitutunun təsis etdiyi "Gənclərin dostu" mükafatı (2019) və Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Beynəlxalq Atatürk Mükafatı (2019).*

## *Mahmudov Yagub Mikayil Oğlu*

***Azerbaycan Cumhuriyeti "Şöhret", "Şeref" ve "Emek" Ordenlerine terfi edilmiş AMİA Tarih Enstitüsü direktörü, ordinaryus profesör, Emektar Bilim Adamı, Azerbaycan Cumhuriyeti Milli Meclisi'nin millet vekili.***

### *Biyografisi*

*Ordinaryus profesör Yagub Mahmudov, 10 Şubat 1939'da Şeki bölgesinin, Göynük köyünde doğdu.1962'de Azerbaycan Devlet Üniversitesi (şu anda Bakü Devlet Üniversitesi) Tarih Fakültesi'ni pek iyi dereceyle bitirdi.O, 1966'da "Akkoyunlu Devleti'nin Venedik Cumhuriyeti (15. yüzyılın 60-70'li yılları) ile Karşılıklı İlişkileri" konusunda Doktora tezini ve 1989'da M.V.Lomonosov adına Moskova Devlet Üniversitesi Tarih fakultesinin İlmi Şurası'nda "Akkoyunlu ve Safevi Devletlerinin Batı Avrupa Ülkeleri ile Karşılıklı İlişkileri (XV yüzyılın II yarısı - XVII yüzyılın başları)" konusunda Profesörlük tezini savundu. Yagub Mahmudov, 1966-1975 Yılları arasında Azerbaycan Ansiklopedisi'nde ilmi editör, kıdemli ilmi editör, Redaksiyon müdürü, Bilimsel İşler bölümü genel editör yardımcısı, 1968-1981 yılları arasında Azerbaycan Devlet Pedagoji Enstitüsü'nde (şu anda ADPÜ'da) başuzman ve doçent olarak çalışmıştır. 1981-2004 yılları arasında Bakü Devlet Üniversitesi Tarih Fakultesi'nde doçent olarak bölüm başkanı, dekan yardımcısı ve dekan olarak görev yapmıştır. Yagub Mahmudov, 1986-1990 ve 1994-2004 yılları arasında Tarih fakültesi dekanlığını yaptı. Fakülte dekanı olduğu zaman fakültenin İlmi Toplantısı'nda S.Kirov adını Kızıl Emek Bayrağı Ordenli Azerbaycan Devlet Üniversitesi'nin adının Bakü Devlet Üniversitesi olarak tarihi adıyla değiştirme kararı vermiştir. O zamandan beri, üniversite kendi tarihi adı altında faaliyet göstermektedir. Yagub Mahmudov 1990 yılında dekanlıktan istifa ederek, o dönemde Milli Kurtuluş Hareketinin merkezlerinden biri olan Tarih fakültesinden bir grup öğrencinin Üniversite'den çıkarılmasını engellemiştir. 1994 yılında milli lider Haydar Aliyev'in siyasi iktidara dönmesinden sonra yeniden dekanlık görevine atanmıştır.*

*Yagub Mahmudov, 1991'den beri BDÜ Tarih Fakültesi Eskiçağ ve Ortaçağ Tarihi Bölümü müdürüdür. Bölümün oluşumu onun adı ile bağlantılıdır. Yagub Mahmudov, 1991-1992 yılları arasında Azerbaycan Cumhuriyeti'nin ilk Eğitim Yasası'nı hazırlayan uzman çalışma grubunu yönetmiştir. Onun önerisiyle Parlamento tarafından kabul edilen yasaya dayanarak ülkede modern bir eğitim sistemine geçilmiştir. Bağımsızlık döneminin ilk "Azerbaycan Tarihi" ve "Orta Çağ Tarihi" ders kitabları onun kaleminin ürünüdür.*

*Yagub Mahmudov, 1992-1993 yıllarında Azerbaycan Cumhuriyeti Yüksek Attestasiya Komisyonu Başkan yardımçısı ve "Azerbaycan Ansiklopedisi" Yayın ve Basım Derneği'nin Genel Direktörü olarak görev yapmıştır. Yagub Mahmudov, 2004'ten beri AMİA Tarih Enstitüsü Direktörüdür. 1000'den fazla bilimsel eserin yazarıdır. Diplomasi tarihi, kayıp topraklar, soykırımları tarihi gibi ilmi istikametler alanında yaratmış olduğu ilmi okullar ve "Birinci El Kaynaklarda Azerbaycan Tarihi" projesi onun liderliğinde gerçekleşmiştir. Eserleri birçok yabancı ülkede (Moskova, Londra,* Washington, *New York, Ankara, İstanbul, Roma, Kahire, Seul, Mexico, İslamabad, Los Angeles vb.) yayınlanmıştır.*

*Yagub Mahmudov, Azerbaycan'da yüksek nitelikli tarihçi kadroların eğitiminde önemli bir rol oynuyor. Onun danışmanı olduğu 65 doktor ve professordan oluşan bir tarihçiler okulu kurulmuştur. Yagub Mahmudov tarihi bilimimizi dünya çapında da layıklı bir şekilde temsil etmektedir. O, XXI. yüzyılın en ünlü bilim adamlarının listesinde yer almıştır.* Yaqub Mahmudov *Yeni Azerbaycan Partisi Siyasi Konseyi üyesidir, 2000 yılından beri Azerbaycan Cumhuriyeti Milli Meclisi'nin millet vekilidir. Cumhurbaşkanlığı seçkilerinde Milli Lider Haydar Aliyev ve daha sonra İlham Aliyev'in avukatıydı ve onlara bir çok resmi devlet ziyaretlerinde eşlik etmiştir. Milli lider Haydar Aliyev, Yagub Mahmudov'un ilmi faaliyetine yüksek değerlendirerek ona Azerbaycan'ın "büyük bilim adamı" ve "büyük tarihçisi" adlandırmıştır. Evlidir. Bir oğlu (Turhan), iki kızı (Aynur ve Gülnur) ve beş torunu (Naila, Kagan, Sara Hatun, Alp Arslan ve Yagub) vardır.*

***İlmi ünvan ve fahri payeler:***

*Tarih üzere felsefe doktoru (1966), Tarih üzere ilimler doktoru (1989), AMİA'nin Mühabir Üyesi (2007), AMİA'nın Aslı Üyesi (2017), Türk Dünyası Araştırmaları* Uluslararası *İlimler* Akademisi *(TDAUİA) Aslı Üyesi (2019),* Azerbaycan Cumhuriyeti *Emektar Bilim Adamı* (1992) *ve Devlet Ödülü Laureatı* (2012), Rusya Federasyonu *Dağıstan Cumhuriyeti Emektar Bilim Adamı*, *Lütfi Zade adına Uluslararası Modern Bilimler Akademisi'nin Aslı İyesi, "The Name in Science" ("Bilimde ad") onursal unvanı, "En İyi Genel İşletme (Menecer)" fahri adına ve Oxford Akademik Birliği Fahri Profesörü (2019), Tarihdaş Milletler ve Topluluklar Cemiyeti Yüksek İstişare Kurulu Üyesi (2019), Türk Tarih Kurumu Şeref üyesidir.*

***Terfi edildiği orden ve madalyalar***

*Yagub Mahmudov "Şöhret" (1999), "Şeref" (2009), "Ataman Anton Golovatıy" (2013), 1. dereceli "Emek" (2019) Ordenlerine, "Azerbaycan Polisi'nin 100. yıldönümü (1918-2018)" Azerbaycan Cumhuriyeti Jübile Madalyası (2018), Millet Meslisi'nin "Parlamento" Madalyası (2018), "Azerbaycan Adaletinin (Ədliyyəsi) 100. Yıldönümü (1918-2018)" Azerbaycan*

*Cumhuriyeti Jübile Madalyası (2019), "General Samed Bey Mehmandarov" Jübile Madalyası (2019), Uluslararası "Simurg" Madalyası (2019), "Azerbaycan Cumhuriyeti Devlet Güvenliği ve Dış İstihbaratı 100. Yıldönümü (1919-2019)" Jübile Madalyası (2019), Türk Dünyası Araştırmaları* Uluslararası *İlimler* Akademisi *Uluslararası Altın Yıldız Madalyası (2019), "Azerbaycan Halk Cumhuriyeti 100. Yıldönümü (1918-2018)" Jübile Madalyası (2019) ve "Azerbaycan Sınır Koruması 100. Yıldönümü (1919-2019)"* Azerbaycan Cumhuriyeti Jübile Madalyası (2019) *ile taltif edilmiştir.*

***Terfi edildiği ödüller:***

*"Yusif Memmedaliyev", "Resul Rza", "Kızıl Kılınc", "Kızıl Kalem", "Samir* Asgerhanov*", "Humay" ve "Genclerin Dostu" ödülleri laureatı. "Kraliçe Victoria" Uluslararası Ödülü, AMİA'nın Abbaskulu Ağa Bakıhanov adına Ödülü (2016), Tarih Enstitüsü'nün tesis ettiği "Gençlerin Dostu" Ödülü (2019), Türk Dünyası Araştırmaları* Uluslararası *İlimler* Akademisi *Atatürk Uluslararası Ödülü (2019).*